UOT 37.

***Əleviyyə Vaqif qızı Ömərova***
*Bakı Dövlət Universitetinin Qazax filialı*

***Nuridə Rafiq qızı Quliyeva***
*Bakı Dövlət Universitetinin Qazax filialı*

# MƏKTƏB YAŞI DÖVRÜNDƏ "MÜƏLLİM-ŞAGİRD" MÜNASİBƏTLƏRİNİN DÜZGÜN FORMALAŞMASINA DAİR

***Алевия Вагиф гызы Омарова***
*Газахский филиал Бакинского Государственного Университета*

***Нурида Рафиг гызы Гулиева***
*Газахский филиал Бакинского Государственного Университета*

# ФОРМИРОВАНИЕ ПРАВИЛЬНОГО ВЗАИМООТНОШЕНИЯ УЧИТЕЛЯ-УЧЕНИКА В ШКОЛЬНОМ ВОЗРАСТЕ

***Aleviya Vagif Omarova***
*Gazakh branch of Baku State University*

***Nurida Rafig Guliyeva***
*Gazakh branch of Baku State University*

# FORMİNG THE RİGHT TEACHER-STUDENT RELATİONSHİP AT SCHOOL AGE

**Xülasə:** Müəllim şübhəsiz ki, "hər şeyi" bilməlidir. Şagirdlər bu cəhəti yüksək qiymətləndirsələr də, müəllimin bir insan kimi şəxsi keyfiyyətlərinə daha çox məna verirlər. Onların ümumi rəyinə görə, müəllim xeyirxah, ədalətli, həssas olmalı, uşaqları sevməlidir. Uşaqların gözündə müəllimin xeyirxahlığı, ədalətliliyi, həssaslığı, ilk növbədə, onun şagirdlərə münasibəti ilə ölçülür. Şagirdlərin yaşı artdıqca, müəllim ölçüləri də dəyişir, lakin onların ikiölçülü təsnifatı öz əhəmiyyətini itirmir.
***Açar sözlər**: müəllim, məktəb yaşı, reputasiya, münasibətlər, pedaqoji proses*

**Резюме:** Учитель должен обязательно знать «все». Хотя ученики ценят этот аспект, они придают больше значениеличным качествам учителя. Согласно их общему мнению, учитель должен быть добрым, справедливым, чувствительным и должен любить детей. В глазах детей, доброжелательность, справедливость и чувствительность учителя измеряются, прежде всего, его отношением к ученикам. По мере увеличения возраста учеников критерии учителя меняется, но их двумерная классификация не теряет своей значимости.
***Ключевые слова:** учитель, школьный возраст, репутация, взаимоотношения, педагогический процесс*

**Summary:** The teacher must know "everything". Although students appreciate this aspect, they attach more importance to the personal qualities of the teacher. According to their common opinion, the teacher should be kind, fair, sensitive and should love children. In the eyes of the children, the benevolence, justice and sensitivity of the teacher are measured, first of all, by his attitude towards the students. As the age of the students increases, the size of the teacher changes, but their two-dimensional classification does not lose its significance.
***Key words:** teacher, school age, reputation, mutual relations, pedagogical process*

Uşağın bir fərd və şəxsiyyət kimi inkişafı həmişə onun başqa insanlarla qarşılıqlı münasibətlərinin xarakteri ilə şərtlənir. Hələ vaxtilə L. S.Vıqotski bu mühüm cəhətə diqqəti cəlb etmiş və onu uşağın mədəni inkişafının ümumi genetik qanunu kimi təhlil etmişdir. L. S. Vıqotski yazırdı: "Uşağın mədəni inkişafında hər bir funksiya özünü iki dəfə, iki planda - əvvəlcə sosial, sonra psixoloji planda... göstərir."

L.S.Vıqotski ali psixi funksiyaların köklərini də onların əzəldən sosial funksiya kimi meydana çıxması ilə izah edir. Onun fikrincə, bütün ali psixi funksiyalar, əvvəlcə interpsixi (iki adamın) funksiya kimi əmələ gəlir, tədricən intrapsixi (bir adamın) funksiya kimi formalaşır. L.S.Vıqotski bu maraqlı qanunauyğunluğu uşaqlarda diqqətin formalaşmasında ananın rolu timsalında ətraflı izah etmişdir: Cenevrə məktəbi psixoloqlarının tədqiqatları da uşaqlarda intellektin inkişafında sosial münasibətlərin mühüm rol oynadığını göstərir. Uşaqların bir şəxsiyyət kimi inkişafı da bilavasitə sosial münasibətlər sahəsi ilə bağlıdır.[4]

Uşaqların qarşılıqlı münasibətləri müxtəlif olsa da, həmişə şaxəli xarakter daşıyır. Ayrı-ayrı yaş dövrlərində onlardan hər biri yeni məna kəsb edir və uşağın bir şəxsiyyət kimi inkişafı prosesində özünəməxsus rol oynamağa başlayır.

Məktəbli yaşı dövründə "müəllim-şagird" münasibətlərinin əhəmiyyəti xüsusilə artır. Özünün psixosemantik tutumuna görə onları "valideyn-övlad" münasibətləri ilə müqayisə etmək daha düzgün olardı.

Kiçik məktəbli yaşı dövründə, xüsusilə I və II siniflərdə şagirdlər üçün müəllim daha çox ana (ata) ölçüləri ilə səciyyələnir. Qarşılıqlı münasibətlərin ailə nümunələrini məktəbdə müəllimlərlə münasibət sahəsində keçirmək meyli bu yaş dövründə xüsusilə güclüdür.

Məktəbdə şagirdlər müəllimin rolunu nə ilə müəyyən edirlər? Müəllim şübhəsiz ki, "hər şeyi" bilməlidir. Şagirdlər bu cəhəti yüksək qiymətləndirsələr də, müəllimin bir insan kimi şəxsi keyfiyyətlərinə daha çox məna verirlər. On-ların ümumi rəyinə görə, müəllim xeyirxah, ədalətli, həssas olmalı, uşaqları sevməlidir. Lakin şagirdlər özlərinin şəxsi təcrübələrində, çox vaxt müəllimlər də həmin keyfiyyətləri görmürlər.

Onlar uşaq sadəlövhlüyü ilə müəllimləri iki qrupa – yaxşı və pis müəllimlərə bölürlər. Bu iki ölçülü təsnifat ilk baxımda çox sadə görünür. Əslində isə uşaqlar müəllimin başlıca məziyyətlərini dixotomik ölçülərlə məharətlə mənalandırırlar. Müəllim şagirdlərə necə münasibət bəsləyir? İnsan münasibətlərində onsuzda həssas olan uşaqlar müəllimin bir şəxsiyyət kimi məziyyətlərini məhz bu kövrək sahədə axtarırlar. Uşaqların gözündə müəllimin xeyirxahlığı, ədalətliliyi, həssaslığı, ilk növbədə, onun şagirdlərə münasibəti ilə ölçülür. Şagirdlərin yaşı artdıqca, müəllim ölçüləri də dəyişir, lakin onların ikiölçülü təsnifatı öz əhəmiyyətini itirmir. Bu, mahiyyətcə müəllimin reputasiyası məsələsidir. Reputasiya (fransızca teputalion, latınca reputatuo – fikirləşmək, düşünmək) hər hansı bir adamın məziyyətləri və ya çatışmamazlıqları barəsində yaranmış ümumi rəyə deyilir. Azərbaycan dilində ad, şöhrət mənasında ifadə olunur. Müəyyən edilmişdir ki, müəllim-şagird münasibətlərinin inkişafında nəinki müəllimin, həm də şagirdin reputasiyası özünəməxsus əhəmiyyətə malikdir.

Pedaqoji ünsiyyətin öz xüsusiyyətləri var. Hər bir müəllim şagirdlər haqqında müəyyən təsəvvürə malik olmalıdır. Şagirdlər bu cəhəti empirik surətdə hələ I sinifdə kəşf edirlər. Onlar müəllimin sözünə həvəslə baxır, özləri barəsində xoş təəssürat yaratmağa çalışırlar. Müəllimlər bu sadəlövh uşaq "bicliyini" çox vaxt başa düşür və bilavasitə onun iştirakçısı olurlar. Şagirdi "yaxşı" və ya "pis uşaq" kimi tanıyan müəllim onu pedaqoji kollektivdə tərifləməyə və ya pisləməyə başlayır. Müəllimlər bir-birinin rəyini müdafiə etdikcə, pedaqoji kollektivdə şagird barəsində tədricən ümumi rəy yaranır. Bu reputasiya, şagirdi, necə deyərlər, məktəbdə oxuduğu oxuduğu illərdə görünməz tellərlə "müşayiət etməyə" başlayır, bir halda onun imkanlarını genişləndirir, başqa halda isə məhdudlaşdırır. "Yaxşı şagird", məsələn, şüşəni qəsdən sındıranda deyirlər ki, bilmədi, əli toxundu. "Pis şagird" şüşəni təsadüfən sındıranda inanmırlar, deyirlər ki, "bilə-bilə elədi". K. Blaqa və M.Şebekin fikrincə, bu, tərbiyədə neqativ hadisələrdən biridir.[3]

Müşahidə materiallarının təhlili aydın şəkildə göstərir ki, şagirdin reputasiyası həm də valideynin və ailənin reputasiyası ilə müəyyən olunur. Müəllim otağında riyaziyyat müəllimi rişxəndlə deyirdi: "Salamın atası cavan qızla evlənib. Elə atanın belə də oğlu olar", "Gülnazın atası öləndən sonra anası alverə qurşanıb. Gül-

naz da ona kömək edir", "Məmmədin, sən demə, oğulluğa götürüblər".

K.Blaqa və M.Şebekin müşahidələrinə görə şagird barəsində pedaqoji kollektivdə (eləcə də şagird kollektivində) müəyyən bir rəyin olması "müəllim otağındakı söhbətlər" mühüm rol oynayır və uzun müddət əsas informasiya kimi müəllimlərin ona münasibətinə təsir göstərir. Görkəmli pedaqoqlar öz təcrübələrində bu sosial-psixoloji faktları həmişə nəzərə alıblar. Məlum olduğu kimi, A.S.Makarenkonun koloniyasında uşaqların keçmişi nəzərə alınmırdı, onların tərcümeyi-halına aid məlumatlar qəsdən tərbiyəçilər və kolonistlərdən gizlədilirdi. Bu baxımdan bizim müşahidə materiallarımızda bir maraqlı meyl özünü aydın şəkildə göstərir. İstər şagirdlər, istərsə də valideynlər əksər hallarda boşanma, təkrar nikah və s. şəraitində ailədə baş verən hadisələri "evin öz sirri" sayırlar və onları müəllimlərdən gizlədirlər. Onlar bu yolla, bir tərəfdən, ailənin və valideynlərin, digər tərəfdən, şagirdin reputasiyasını qorumağa çalışırlar. Ailədə baş verən köklü demoqrafik dəyişiklikləri müəllimlərin vaxtında öyrənə bilməməsinin əsas səbəblərindən biri, görünür, bununla bağlıdır.

Bir eksperimentin nəticələrini təhlil edək. Tədqiqat prosesində şagird barəsində yaranmış mənfi rəyə müəllimlərin münasibətini öyrənirdilər. Bu məqsədlə onları ümumi şəkildə iki tip ayırdılar. Birinci tipə şagird barəsindəki yanlış fikrə inanan, ikinci tipə isə inanmayan müəllimləri daxil etdilər. Alimləri bir məsələ xüsusilə maraqlandırırdı: görəsən, ayırd edilmiş iki tip müəllim "problemsiz" və "çətin" şagirdlərə necə yanaşırlar? Müəyyən olundu ki, birinci tip müəllimlər asanlıqla şagird barəsindəki yanlış fikirlərin təsiri altına düşür, onların davranış və rəftarını bu baxımdan qiymətləndirirlər. "Problemsiz" şagirdləri yerli-yersiz rəğbətləndirdikləri halda "çətin" şagirdlərə neqativ yanaşırlar. "Çətin" şagirdlərə ən çox onlar hər hansı bir səhvə yol verdikdə diqqət yetirirlər. Əslində çətin şagirdlərə inanmırlar, onlarla öz aralarında məsafə saxlayırlar.

İkinci tip müəllimlər isə şagird barəsindəki mənfi fikirlərə tənqidi yanaşır, onun davranış və rəftarını obyektiv qiymətləndirirlər. İstər "problemsiz", istərsə də "çətin" şagirdlərə ədalətlə yanaşır, öz münasibətlərində onları bir-birindən ayırmırlar. [1]

Eksperimentin əsas qayəsi əslində məhz həmin məsələnin araşdırılması ilə bağlı idi. Bu məqsədlə birinci və ikinci tip müəllimlərin dərs dedikləri siniflərdə şagirdlərin təlim göstəricilərini müqayisə etdilər. Məlum oldu ki, eksperiment müddətində birinci tip müəllimlərin dərs dedikləri siniflərdə şagirdlərin təlim göstəriciləri aşağı düşmüşdür.

Pedaqogikada müəllimlərin hamı tərəfindən eyni dərəcədə qəbul edilən ümumi təsnifatı hələ işlənilməmişdir. Ayrı-ayrı tədqiqatlarda müxtəlif müəllim tipləri təsvir olunmuşdur. Yuxarıdakı eksperimentin bir cəhətdən xüsusilə əlamətdardır: hər hansı bir müəllimin şagirdə neqativ münasibəti öz-özlüyündə lokal xarakter daşımır, "müəllim-şagird" münasibətləri sistemində daha geniş məna kəsb edir, onun təkcə təlimə münasibətini deyil, bütövlükdə dünya duyumuna, mənəvi dəyərlərinə, insan ölçülərinə öz təsirini göstərir.

Müəllim-şagird münasibətlərində müəllimin rəhbərlik üslubu mühüm rol oynayır. Biz, bu baxımdan müəllimləri üç tipə - avtoritar, demokratik və liberal tiplərə ayırıb onların şagirdlərlə münasibətlərini müqayisəli təhlil etdik. Həmin məsələ son zamanlar sosial psixologiyada və pedaqoji psixologiyada xüsusilə geniş öyrənilib. Müvafiq müəllim tiplərinin sosial-psixoloji portreti maraqlı materiallar əsasında təsvir olunub. Bizim müşahidə materiallarında da onlar üçün səciyyəvi olan əsas xüsusiyyətlər aydın nəzərə çarpır. Avtoritar müəllimlər şagirdlərlə kəskin rəftar edir, onlarında öz fikirlərini söyləməyə təşəbbüs göstərməsinə imkan vermir, öz tələblərinin qeydsiz-şərtsiz yerinə yetirilməsinə ciddi nəzarət edir. Demokratik müəllimlər şagirdləri müstəqil olmağa həvəsləndirir, onlara həssaslıqla yanaşır, onların problemləri, şəxsi həyatları ilə maraqlanırlar. Liberal müəllimlər isə öz vəzifələrini formal surətdə yerinə yetirir və şagirdlərə laqeyd yanaşırlar.

Müəllimin rəhbərlik üslubu onun ümumi mədəniyyətini və sosial meyllərini də bilavasitə əks etdirir. Özünün bu xüsusiyyətlərinə görə müəllimin rəhbərlik üslubu onun şagirdlərlə qarşılıqlı münasibətlərinin çoxşaxəli sisteminə köklü təsir göstərir.

Pedaqoji ünsiyyətin intensivliyi müəllimin rəhbərlik üslubu ilə müəyyən olunur. Müəllimin şagirdləri qavraması və anlaması, sinifdə mey-

dana çıxan ixtilafların xüsusiyyətləri və s. onun rəhbərlik üslubu ilə əlaqədardır.

Müşahidə materiallarının təhlili göstərir ki, valideynləri ölmüş və ya boşanmış şagirdlərlə demokratik üslublu müəllimlər nisbətən asanlıqla dil tapa bilirlər. Şagirdlər onlara hörmətlə yanaşır, inanır, hətta çox vaxt öz ürəklərini onlara açırlar. Müəllim, şagird çətin olan bu anda ona təsirli kömək göstərirsə, qayğı ilə yanaşırsa, etibar etdiyi sirri qoruyub saxlaya bilirsə, onların qarşılıqlı münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradır. Avtoritar üslublu müəllimlərlə şagirdlər arasında konflikt hallarının yaranmasına daha çox təsadüf olunur.

Ailədə əmələ gələn köklü demoqrafik dəyişikliklər uşağın psixoloji avtoportretində, mənlik şüurunda, iddia səviyyəsində bilavasitə əks olunur. Müəyyən sözlər, xüsusilə, ana, ata, yazıq, yetim, və s. onlar üçün özünəməxsus psixosemantik məna kəsb edir. Adi şagirdin diqqətini cəlb etməyən hər hansı bir təsadüfi söz çox vaxt onları asanlıqla sarsıdır. Yaşlılarla, o cümlədən, müəllimlərlə münasibət sahəsində də valideyn himayəsindən məhrum olmuş uşaqlarda xüsusi senzitivlik (həssaslıq) müşahidə olunur. Bu isə müəllimdən əsil pedaqoji məharət tələb edir.

Pedaqoji məharət müxtəlif xüsusiyyətlərlə səciyyələnir. Onlardan ikisi xüsusilə mühümdür. Pedaqoji məharət, bir tərəfdən, ölçü hissi ilə bağlıdır. Digər tərəfdən, şagirdlərlə düzgün münasibət saxlamaq bacarığı onun bəlkə də başlıca məziyyətlərindən biri kimi özünü göstərir. İnsan münasibətlərinin bütün sahələrində taktın əhəmiyyəti böyükdür. Müəllim – şagird münasibətlərində isə o, xüsusilə zəruridir.

Uşaq qruplarının həyatı emosionallığı ilə seçilir. Sinifdə bəlkə də hər dəqiqə bir-birinə bənzəməyən gözlənilməz situasiyalar yaranır. Bu məqamda fikirləşmək, hər şeyi ölçüb düzgün qərara gəlmək üçün müəllimə vaxt verilmir. Ancaq o, həmin məqamda təkcə elmi-metodik cəhətdən deyil, həm də pedaqoji etika baxımından düzgün olan qərara gəlməlidir. Dərsin pozulması üçün gözlənilmədən təhlükə yarananda, söhbətin, necə deyərlər, şirin yerində öz-özünə konflikt situasiyası əmələ gəldikdə, müəllim məharətlə tapdığı sərrast bir sözlə, qətiyyətli hərəkətlə əsl möcüzə effekti yaradır. Dərs öz axarında davam edir. Öz işinin əsl ustası olan qabaqcıl müəllimlərin iş təcrübəsi pedaqoji məharət nümunələri ilə zəngindir.

Müəllim-şagird münasibətləri həqiqi, canlı, sağlam əxlaqa əsaslanmırsa, bu, tərbiyədə mənfi nəticələrə gətirib çıxarır. Müəllimin şagirdlərlə münasibətini valideynlərin uşaqlarla münasibətilə müqayisə etmək olar. Buradan uşaqlara məhəbbətin müəllim üçün ən vacib kateqoriya olmasının səbəbi aydın olur. Amma qeyd etmək istərdik ki, oxşarlıqda heç də az vacib olmayan fərqlər var, məsələn, müəllimin sosial məsuliyyəti valideyninkindən, şübhəsiz ki, yüksəkdir. Çünki valideyn öz övladını tamamilə özü kimi, öz nümunəsində, bu obrazın cəmiyyətin ehtiyac və ideallarına nə dərəcədə uyğun olub-olmadığını nəzərə almadan tərbiyə edə bilər. Müəllim üçün isə belə münasibət nəinki qüsurludur, həm də dözülməzdir, çünki, o, hər şeydən əvvəl, cəmiyyətin tələblərinin bələdçisi olmalıdır. Cəmiyyət nəsillər arasındakı əlaqələri təmin etmədən əxlaq tərbiyəsinin məzmun və formasına, həmçinin insanların daxili aləminin məzmununa bu prosesi təmin edən müəyyən tələblər irəli sürmədən inkişaf edə bilməz. Burada müəllim əxlaqının tənzimləyicisi, müəllimin daxili aləminə təsir edən pedaqoji etikanın rolu qeyri-adi şəkildə artır.[2]

**Problemin aktuallığı.** Müəllimin şagirdlərlə mənəvi əlaqələri özünəməxsusluğu ilə zəngin, vaxt etibarilə uzunmüddətlidir və bu onun yaradıcı iş bacarığında, dünyagörüşündə və kamil şəxsiyyətə aid bütün keyfiyyətlərində də öz əksini tapır. Onun öz-özünü dərk etmək yolu ilə dünyagörüşü qazandığını təsdiq etmək olar, bu prosesdə isə müəllimin rolu əvəzedilməzdir.

**Problemin yeniliyi**. Pedaqoji prosesdə əxlaqi münasibətlərin quruluşu mürəkkəb və çoxplanlıdır. Bura, hər şeydən əvvəl, uşaqlar, müəllim-cəmiyyət münasibətləri, sonra isə onlara təsir edən bütün qalan münasibətlər, yəni valideynlər-uşaqlar-müəllim, müəllim-pedaqoji kollektiv, müəllim-cəmiyyət və başqaları daxildir. Bunlar çoxcəhətli olub, dünyagörüşü, siyasi, peşə və s. əhatə edən münasibətlərdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə qeyd olunan ideyalardan hər bir pedaqoji kadr "müəllim-şagird" münasibətlərinin düzgün formalaşmasında istifadə edə bilər.

## Ədəbiyyat:

1. Ağayev Ə.Ə. Azərbaycan elmi pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri. Bakı: Avropa, 2005.
2. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, 2005.
3. Orucov V.Ö. Təhsilin keyfiyyətinin yüksəldilməsi amilləri. Azərbaycan məktəbi, Bakı, 2006, № 6
4. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı: Çaşıoğlu, 2002.

**E-mail**: nurideomer@mail.ru
**Rəyçi:** *ped. ü. fəls. dok*. **S.N. Nəsibova**
**Redaksiyaya daxil olub:** 27.10.2018